**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51 Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az** Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180 https://twitter.com/ANAMA_gov_az

# 19 Fevral 2018-ci il tarixində Agentlik tərəfindən Ağcabədi rayonu ərazisində keçirilmiş təcili təxirəsalınmaz əməliyyat barədə

# OPERATİV MƏLUMAT

**19 Fevral 2018-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən və Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən Agentliyə Ağcabədi rayonu, Şənlik kəndi ərazisində 1 ədəd minaya oxşar əşyanın tapılması barədə məlumatlar daxil olmuşdur.**

**Məlumatlara əsasən Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu dərhal həmin əraziyə göndərilmişdir.**

**Agentliyin mütəxəssisləri tərəfindən yuxarıda adı qeyd olunmuş ərazidə 1 otlaq sahəsinə baxış keçirilmiş, aparılan təcili təxirəsalınmaz operativ əməliyyat axtarış tədbirləri nəticəsində 1 ədəd metal boru aşkar olunmuş, götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınmışdır.**

***Bu əməliyyat Böyük Britaniya Hökuməti tərəfindən maliyyələşdirilmişdir.***

Funded by
UK Government

---

**Ümumilikdə Agentlik tərəfindən 01 yanvar – 19 fevral 2018-ci il tarixlərində Ağdam, Ağcabədi, Ağstafa, Abşeron, Füzuli, Tərtər, Qazax, Naftalan, Goranboy, Xızı, Lənkəran rayonları, Bakı və Sumqayıt şəhərləri ərazisində 5 ev və həyətyanı sahəyə, 2 əkin sahəsinə, 1 fərdi yaşayış evinin qarşısına, 4 otlaq sahəsinə, su kanalına, kənd qəbirstanlığının yaxınlığına, məişət tullantıları ərazisinə, yol kənarına, RPŞ-nin inzibati ərazisinə, beton zavod və bazar ərazisinə baxış keçirilmiş, 586 ədəd partlamamış hərbi sursat aşkar olunaraq zərərsizləşdirilmiş, 22 985 kv.m ərazi yoxlanılmışdır.**






2723